Uşaqlar üçün Müqəddəs Kitab

təqdim edir



# Rut: Məhəbbət Hekayəsi

Müəllif: Edward Hughes

İllüstrasiya edən: Janie Forest

Uyğunlaşdıran: Lyn Doerksen

Tərcümə edən: Günay Əsədova

Təqdim edən: Bible for Children
www.M1914.org

©2014 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini çıxarda bilmək hüququna maliksiniz.

Əgər ulu nənən-baban, onların valideynləri və ailəndə səndən öncə olan bütün adamlarla görüşsəydin, yəqin ki, onların necə adam olduqlarına görə təəccüblənərdin.  Müqəddəs Kitabda İsanın cismani əcdadlarından biri bütlərə ibadət edən Moavlı qadın - Rut idi.



Rutun hekayəsi Şimşondan sonra İsraildə Allah xalqının Allaha güvənməyən və itaət etməyən vaxtdan başlayır. Ölkəni dəhşətli aclıq bürüdü. Sən aclığın nə olduğunu bilirsən? Düzdür! Aclıq heç bir meyvənin və ya taxılın məhsul verməməsi, heyvanların və hətta bəzən insanların da acından ölməsidir.





Elimelek adlı bir adam arvadı və iki oğlu ilə yemək axtarmaq üçün Bet-Lexemi tərk etdilər.  O, adamların bütlərə səcdə etdiyi Moava getdi.




Moavda
Elimelek və
onun ailəsinin işləri yaxşı getmirdi.
Elimelek öldü, ardınca da iki
oğlu öldü.
KİLYON
ELİMELEK
MAXLON
Arvadı Naomi iki gəlini Rut və Orpa
ilə qaldı.  Hər iki qız Moavdan idi.

İndi dul Naomi eşitdi ki, Rəbb Öz xalqına çörək verərək, onlara baş çəkib.  O, öz ölkəsinə qayıtmağı qərara aldı.  Bəs iki gəlin nə edəcək?  Naomi onlara Moavda qalmağı və yenidən ərə getməyi məsləhət gördü.



Orpa öz ailəsinin yanına qayıtdı. Rut isə imtina etdi. Əksinə, Rut öz qayınanasını tərk etməyəcəyini vəd edən gözəl bir şey dedi.





Naominin köhnə dostları onun Bet-Lexemə, evinə qayıtmasına sevindilər. Ancaq Naomi onlardan onu Naomi (xoş) çağırmaq əvəzinə “Mara” (acı) çağırmalarını xahiş etdi.



Rut Moavdakı əksər insanlar kimi bütlərə ibadət etməsinə baxmayaraq, o, həmin ibadətdən İsrailin Yaşayan Allahına ibadətə döndü.  Rut Naominin kifayət qədər yeməyinin olmasından əmin olmaq üçün çox işləyirdi.  O, hər gün zəmidə biçinçilərin ardınca düşür və tökülən başaqları toplayırdı.







Zəminin sahibi Boaz Rutun öz qayınanasına necə yaxşılıq etdiyini eşitdi. Boaz öz biçinçilərinə biləməkdən başaq saxlamalarına göstəriş verərək, Ruta kömək etdi. Boaz Rutu xoşlamağa başladı.



Rut Naomiyə Boaz
və onun xeyirxahlığı
haqqında danışanda
yaşlı qadın Allaha alşıq
etdi. “O adam bizim
qohumumuzdur, yaxın
qəyyumlarımızdan
biridir”.





Bir müddət keçəndən sonra Boaz Rutla evlənmək, Naomi və onun ailəsinin torpağının qayğısına qalmaq istəyirdi. Ancaq başqa yaxın qohum da var idi. Bu yaxın qohum yalnız torpağı istəyirdi, Rutun onun arvadı olmasını isə istəmirdi. Qanunda deyilir ki, o, ikisindən birinə malik ola bilməz.

O günlərdə adamlar məsələni həll etmək üçün əl verib görüşmədi.  Boaz çarığını çıxartdı və o, bunu yaxın qohuma açıq verdi.  İş həll olundu.  Rut Boazın arvadı ola bilərdi.  İndi Rut və Naomi Boazın ailəsinin üzvləri idi.





Boaz və Rut ilk oğullarının adını Oved qoydular. O, İsrailin böyük padşahı Davudun babası idi.

Ancaq bundan da gözəli o idi ki, körpə Oved Rəbb İsa Məsihin əcdadı idi.  İsa padşahların Padşahı və dünyanın Xilasları olmaq üçün Davudun ailəsindən gəldi.



# Rut: Məhəbbət Hekayəsi

Allahın Sözü, Müqəddəs Kitabdan
olan bir hekayədir

Rut

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130


Son

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət olduğuna inanırsansa, onda bunu Allaha de: Əziz İsa, mən inanıram ki, Sən Allahsan və mənim günahlarıma görə ölmək üçün insan oldun və indi Sən yenidən yaşayırsan. Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, mən indi yeni həyata malik ola və bir gün Səninlə birlikdə əbədiyyən yaşaya bilim. Sənə itaət etməkdə və Sənin övladın kimi yaşamaqda mənə kömək et. Amin.

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış! Yəhya 3:16**